**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**
**Q Ə R A R**
**№ 10**

**Bakı şəhəri** **18 sentyabr 2024-cü il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Fariz İlyas oğlu Fərəcovun Astara Rayon Statistika İdarəsinin rəisi vəzifəsinin tutulması üçün 2024-cü il avqust ayının 21-də keçirilən ümumi müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Fərəcov Fariz İlyas oğlu Astara Rayon Statistika İdarəsinin rəisi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2024-cü il aprel ayının 30-da elan edilmiş ümumi müsahibədə iştirak etmişdir. Müsahibə 2024-cü il avqust ayının 21-də Dövlət Statistika Komitəsi aparatının Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsi müdirinin müavini-Statistik vahidlərin reyestrləri və inzibati məlumat mənbələri ilə iş sektorunun müdiri Toğrul Əcəlov, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Eltun Süleymanov və müstəqil ekspert Aydın Abdurahmanovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Fərəcov Fariz İlyas oğluna müsahibə komissiyasının üzvlərinin hər biri 14 bal vermiş və nəticədə iştirakçı 14 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 22.08.2024-cü il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası qərara aldı:

1. Fərəcov Fariz İlyas oğlunun 2024-cü il 22 avqust tarixli apellyasiya şikayəti təmin edilməsin və Astara Rayon Statistika İdarəsinin rəisi vəzifəsinin tutulması üçün 2024-cü il avqust ayının 21-də keçirilən ümumi müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: